12 Rəməzanülmübarək 1332 Doqquzuncu il 23-го июля 1914 г.

# ملا نصر الدين

№23 Qiymətі 12 qəpik. МОЛЛА НАСРЕДДИНЪ Цена 12 k. № 23




*Mədən sularında bakılıların yaylaq kefləri*
*- Xanım! Həzrət Abbas haqqı mənim 5 milyonum var…*
*- Xanım, o yalan deyir qərib İmam Rza haqqı mənimki 12 miyondur.*
*- Vallah xanım! Mənim nəinki bir pulum, canım da sənə qurbandır.*

Litoq. S.Bıxova.



**Adres:** *Tiflis, Davidov küçəsi nömrə 24.*
**Адресь:** *Тифлись, Давидовская, 24.*
**Teleqram üçün:** *Tiflis, "Molla Nəsrəddin".*
**Для телеграмм:** *Тифлись, "Молла Насреддинь".*
***Подписная цена:***
***На годь - 6 руб.***
***6 месяц - 3 р. 50 к.***
***3 месяц - 2 р.***
***1 месяц - 40 к.***
Adres dəyişmək haqqı 3 dənə 7 qəpiklik markadır.

**Qafqazda və Rusiyada**
**12 aylığı - 6 manat**

"-----------------------" 6 aylığı - 3 manat yarım
"-----------------------" 3 aylığı - 2 manat
"-----------------------" 1 aylığı - 40 qəpik
*Əcnəbi məmləkətlərdə 12 aylığı - 7 manat*
"-----------------------" 6 aylığı - 4 manat

***Tək nüxsəsi idarəmizdə 10 qəpik, özgə şəhərlərdə 12 qəpik.***

# Ədəbiyyat

## KEFİMDİR...

Hay! Hay! Genə mahi-rəməzan oldu, kefimdir!
El cümlə mənə müxlisi-can oldu, kefimdir!

Başlandı genə dövreyi-iqbalü səadət
Hər kəs mənə göstərmədə ixlasü iradət
Olduqca müridan ilə məşğuli-ibadət
Mədhim hamıya virdi-zəban oldu, kefimdir!
El cümlə mənə müxlisi-can oldu, kefimdir!

Mövhum olan əqvalim olub rayici-bazar
Mömin hacılardan tapılır bollu xiridar
Bəh! Bəh! Genə amalıma çatdım nə qəmim var
Gülçöhreyi-məqsud əyan oldu, kefimdir!..
El cümlə mənə müxlisi-can oldu, kefimdir!

Olmuşdu mənə on bir ay ev guşeyi-zindan
Nə yağlı plov var idi, nə dadlı fisincan
Amma oluram bu ayı mən hər gecə mehman
Hər yerdə mənə sədri-məkan oldu, kefimdir!
El cümlə mənə müxlisi-can oldu, kefimdir!

Şimdi mənə lazımdı edib min cürə təzvir
Minbərdə qılam xəlqə öz əfkarımı təqrir
Cahilləri tərif edəm, arifləri təkfir
Çun, hökmüm əvam içrə rəvan oldu, kefimdir!
El cümlə mənə müxlisi-can oldu, kefimdir!

Etdim o qədər ümməti tərğibi-cəhalət!..
Kim cəhlilə hər işdə mənə oldular alət!
Bax, şimdi, mənimçün o cəhalət, bu səfalət
Bir vasiteyi-şöhrətü şan oldu, kefimdir!
El cümlə mənə müxlisi-can oldu, kefimdir!

*Dəstançı*

## KABLA TÜKƏZBAN İLƏ FATMANİSANIN SÖHBƏTİ

- Ay arvad, niyə genə belə bahar bulutu kimi tutulub bikefsən, ərindən acıq eləmiyibsən ki? Olmaya kişi genə qudurub səni evdən qovubdur?

- Yox, qadan alım, kaş bir öz dərdim olaydı, indicə Xədicə gəlmişdi bizə nağıl eləyirdi ki, biçara Zəhra xanımı dünən əri boşayıb, gedib Fizzə xanımı alıbdır. Odur ki, lap qupquru qurumuşam.

- Buy, ay qız, başıma xeyir, o ki bir işli, güclü, ağıllı-kamallı cəvanəzən idi və neçə il idi ki, Hacı Məmmədrzaya arvadlıq eləyirdi. Aralarında güldən ağır söz olmayırdı, onu niyə birdən birə o külbaş boşadı?

- Ay arvad, nə qoymusan nə axtarırsan, indi bu zəmanədə arvadın ağlına, kamalına, sərinə, səliqəsinə baxan kimdir. Kişilərin bir parası yoğuntopuq, ət, can axtarır. Bir parası da mal-dövlət. Görmürsən bir arvadın ərindən ona bir yüz manat (həştyek) yetişəndə min yandan müştəri çıxır?

- Nə deyim balam, qadam o cür ərlərin ürəyinə…

- Odur ki, bir para gözlərinə döndüyüm arvadlar ər evini özlərinə ev bilmirlər də. Deyirlər: "Abad olar tərlanı olaram, xarab olar bayquşu".

Doğrudan da Tükəzban bacı, haqq onların tərəfindədir. O cür kişilərin vəfasına min lənət…

## ƏŞ'AR

*Gözlərin aydın ay əmi! Xoş görünür qabağımız*
*Rahi-tərəqqi üzrədir indi bizim ayağımız.*

*Dahi o sən görən deyil millətimiz üzün açıb*
*Başqa dona girib keçən adətimiz, səyaqımız.*

*Düşmənü dost yanında biz başı aşağa olmarıq*
*Çox ucalır külahımız, ərşə dəyir papağımız*

*Yox fanatizm adlı şey bizdə bu halda, ey əmi!*
*Anı yuyub təmizləyib çaxırımız, arağımız.*

*Demə ki ittifaq yox bizdə xudaya şükr kim*
*Var qumarxanədə yığnaqü ittifaqımız*

*Beş yaşı olmamış tamam qızlarımız köçür ərə*
*Xeyli tərəqqidir bu, tez hasil olur uşağımız.*

*Gözlərimiz açıq deyil isə açıqdır ağzımız*
*Ləbləbi ilə tərpənir axşamadək dodağımız*

*Həm qılınır namaz və həm onda pişir kəbabü aş*
*Məscidimiz bizim olub həm gərək, həm yarağımız*

*Doğrudur yoxdur elmimiz bizdə deyil günah çun*
*Bizlərə elm düşməyir çoxdan olub sınağımız*

*Əslinə baxsan elm özü fayidəsizdi bizlərə*
*Tərk olar onda ol gözəl oğru ilə qaçağımız*

*Bilsə yazı-pozu əgər Şahsənəm ilə Xanpəri*
*Kim əyirər, darar dəxi cəhrə ilə darağımız*

*Gər oxuya qəzet-məzet Şahyəmən ilə Yasəmən*
*Onda mənə de bəs görüm kim yamasın yamağımız.*

*Yox başı şapkalı, uzun saçlı təbibə ehtiyac*
*Molla yazan dua ilə yaxşı olur naçağımız*

*Elmimiz olmasa məgər bizlərə təng olur məaş?*
*Kəsbi-məaşa var bizim xəncərimiz, bıçağımız*

*Düşməni dəf üçün əgər bizdə silah yox, nə qəm*
*Yoldaşü dostu yıxmağa var təpik-badağımız*

*Bəylərin et papağıtək ömrünü tul, ey xuda,*
*Yoxdur olardan özgə bir təkyəgəhü dayağımız.*

*İmza: Hərzəçənə*

## BAKIDAN MƏKTUB

Bilməyirəm, Molla əmi, sən niyə bu İran konsullarının yaxasından əl çəkmirsən? Gündə bir bəhanə ilə birisinə iftira deyirsən! Gah Gəncənin təzə konsuluna dolaşırsan. Konsul nə eyləsin, əlindən nə gəlir? Onunku ancaq təzkirə satmaqdı ki satır. Yoxsa konsul hara, bir para işə qarışmaq hara. Çox da ki, Bakıda bir nəfər iranlı kasıb, naxoş fəhlə gedib yıxılır konsulun qapısına ki, aman günüdür, cənab konsul, məni göndər bu mərizxanların birinə, bəlkə mənə müalicə eləyərlər.




**Bakı küçələrində Kərbalaya gedənlər bir ay gedəndən qabaq**




*- Qardaş, belə ki, bu tas göstərir çünki sənin oğlun hamamda isti su yerə tökəndə əcinnənin balasını yandırıbdır. Ona görə ona zəfər yetiriblər, başına hava gəlibdir. Zəfər yetirən əcinnə də natəraşkən sünnidir. Şiə olsaydı asan idi. Gərək çox zəhmət çəkilə və kəsərli dua yazıla. Odur ki, xərci çox olacaqdır*



Vətənimdə gözləri yolda qalan əhli-əyalıma bir parça çörək qazanıb göndərim. Konsula nə borcdur belə işlərə qarışsın? Yaxşı eləyib ki, həman saat fərraşlara buyurub yapışıb yaxasından tulluyublar bayıra. Konsul gərək zabitəli olsun, hər azqıntı, uzquntunu qapısına yol verməsin.

*İmza: Gecəquşu*

*Хромо-литонграфия Т-во И.Цагурия и С.Атабекова Тифлисъ Мухранская улица, №25*

## TƏBRİZ MƏRİZXANASINDA

*Bir cavanın tərcümeyi-halı*

*Əla ey vadiyi-məsləkdə sərgərdan olan könlüm*
*Özünə bircə məslək tapmayıb heyran olan könlüm.*

*Bütün ömründə bir din üzrə bir gün durmayan sabit*
*Ağactək hər tərəfdən dəysə yel lərzan olan könlüm.*

*Çocuqluqdan gəzən azadə həmsin olmıyanlarla*
*Evindən başqa hər bir bəzmdə mehman olan könlüm.*

*Cavanlıq aləmində cilvələndin min atəşilə*
*Açıldın bağlarda qönçətək xəndan olan könlüm.*

*Hanı ol günlərin kim şal salıb ləbbadə geymişdin?*
*Girib məsciddə gəh üftan, gəh xizan olan könlüm.*

*Görəntək mülki-İran üzrə bir elani-məşrutə*
*Töküb molla libastn lat-lüt üryan olan könlüm.*

*Geyib pidjak-jilet taxdın boğaza şanlı bir feklu*
*Təşəxxüslə gəhi tacir, gəhi bəy-xan olan könlüm.*

*Hanı suzişli nitqin məhv olan noiyyət üstündə*
*Yıxan noiyyətin bir qatil-insan olan könlüm*

*Bu az ömründə Təbriz içrə düşdün əlli min rəngə*
*Savadsız, elmsiz bir sahibi-ürfan olan könlüm.*

*Keçirdin vaxtını şəkk ilə, səhviyyat ilə daim*
*Özü iranlı, amma sahibi-rizvan olan könlüm.*

*Hara getdin qovuldun, harda qaldın tərd olundun sən*
*Mərizxana ümuru əldə son ünvan olan könlüm.*

*Ülumi-tibbdən bibəhrə hər bir fənndən ari*
*Həvayi-nəfslən naxoşlara dərman olan könlüm.*

*Salıb daminə bihörmət qılan biçarə nisvanı*
*Mərizxanə zalı bir məcmeyi-nisvan olan könlüm.*

*Qurarsan qospitalda içki, çalğı, cında dəstgahı*
*Davası binəva naxoşların müzqan olan könlüm.*

*Məəttəl qalmayan heç bir vəchlə dünya ümurunda*
*Həyasızlıqla hər bir müşkülü asan olan könlüm.*

*Qırıb naxoşları təsis edən bir çox məzaristan*
*Təbabət aləmində şöhreyi-İran olan könlüm.*

*Hərdəmxəyal*

## AĞDAŞDAN MƏKTUB

Molla əmi! Sizin jurnalların ikinci ya üçüncü ilin nömrələrinin birində yazılmışdı ki, hər kim dörd arvaddan artıq alsa evinə qiylü-qal düşər. Bu günlərdə bizim mahalda bir dövlətli 5-ci arvad aldı, onun evinə qiylü-qal düşmədi. Əvvəlinci səbəb budur ki, nikahı qazi Əhməd əfəndi oxuyub. Cənab qazinin duasının bərəkətindən çox mülayimanə dolanırlar. Çünki qazi 9 yaşında qıza nikah oxumağı cayiz buyurur. Keçən bir nikah məclisində qazi cənabları buyurub ki, 9 yaşında qıza nikah oxuyuram. İkinci səbəb budur ki, 5 arvad alan dövlətlidir, ata babadan müamiləçidirlər. Belə ki, bir məzlum kəndçiyə otuz manat verirlər iki ildən sonra üç yüz manata razı olmurlar. Ona görə qazi nikah oxuyan vaxtda duasını çox ürəkdən eləyib, odur ki, yüzbaşının evinə heç vaxt qiylü-qal düşmür…

*İmza: Cavan*

## BUXARA XƏBƏRİ

Üç nəfər cavan mollalar oxumaq, yazmaq öyrətmək üçün təzə məktəb bina eyləmişdilər. İşanda mollalar cənab ali əmir həzrətlərinə ərizə verib deyiblər ki: "Əgər bu balalar saqqalları çıxmamış oxuyub, yazmaq öyrənsələr hürriyyət istəyib hərəmxanadan qaçarlar. Onda daha bəzmlərimiz boş qalar". Cənab ali də filfövr təzə məktəblərin qapanmağına əmr buyurublar!

*Oxuyub yazsa bəçə dəxi deyildir o cavan*
*O gərək quşbəyi olsun ya da qazi kəlan*

*Beçələr hər biri bir mənsəbə təyin olsa*
*Mirşəbin dadü sitadi olar onda viran*

*Saqqalı çıxmamış oğlan uşağı dərs oxumaz*
*Quşbəyi! Qoyma şu bidət ola bu yerdə əyan*

Müxtəsər, nə başını ağrıdım, şükürlər olsun ki, cənab ali əmirin hökmülə saqqalı çıxmamış uşaqların oxuyub yazmaq öyrənmələri bərk qadağan olundu. 20 yaşına yetişəndən sonra oxumaq ixtiyarları var. Yəni onda da mollaların işinə yarasınlar.

## TELEQRAF XƏBƏRLƏRİ

Tehran - Bu gün Avropa davası münasibətilə İran dövləti moblizasyon elan etdi. Yetişən müvəssiq xəbərlərə görə iki yüz yetmiş beş min əmələyi-mövta, yüz səksən min seyid, yüz altımış min dərviş, qırx səkkiz min mütrüb, əlli min falçı, yetmiş min ilanoynadan, yüz otuz min mücavir, doxsan səkkiz min xədəmə, üç yüz əlli min mərsiyəxan silah altna çağırılıbdır və bunların hamısı İranın təzə üsul ilə açılmış zorxanalarında dava elmini ikmali-təhsil etmiş igidlərdir. Avropa siyasi dairələrində İranın bu cür təhşidati-əsgəriyyəsindən nəhayət dərəcədə ehtiyat ediyorlar.

İsfahan - Ayətüllah ağayi-Nəcəfinin fatihəxanlığına hər tərəfdən təntənəli başyaran və sinəzən dəstələri, şəbehlər və üsəra ilə gəldilər. Bunların hamısından artıq cəlbi-diqqət edən major Folegin təhti-komandasında olan dəstə idi. Muzikanın tərənnümsaz olması, jandarmların nizamı, əllərində tapança və qəmə olub atılıb düşənlərin vəzi, sinə vuranların və üsərə şəbehlərinin haləti və Qasim otağının ziynəti, tamaşagəranə başqa bir hüzn verdi.

**Həmədan** - Çörək ucuzlaşmağı münasibətilə şəhərdə olan qırx min dilənçi müttəfiqül-qövl Tehrana təşəkkür teleqrafı vurmağa qərar verdilər.

**Şamaxı** - Buranın şiəsi və sünnisi bir-birlərinin acığına cəmi mədrəsə və ali imarətləri sökdürüb əvəzində məscid tikməyi təhti-qərara alıblar. Rəvayətə görə bu il məhərrəmdə əhli-təsənni qardaşlar da şəbeh çıxardacaqlar, baş yaracaqlar.

**İsfahan** - Ağayi-Nəcəfinin fatihəxanlığı, hər tərəfdən tökülüb gələn camaatın izdihamına baxmayaraq, kəmali-sakitlik ilə keçdi. Ancaq başyaranlardan iki nəfər şəhid olub və tamaşaçılardan da iki nəfər quyuya düşüb boğuldu.

## GƏNCƏDƏN MƏKTUB

Ay Molla əmi! Biz iranlılar səndən artıq dərəcədə incinmişik. Ay kişi, nə yapışmısan iranlıların yaxasından. Nə hey Gəncə konsulu belə gəldi, filan belə getdi. Təzkirə belə oldu yazırsan? Məgər sən məxluqun vəkili olmusan. Söz yox gərək təzkirə məsələsi başı çuvaldələn ola və Gəncə konsulu nayibi ilə Qarabağın təzə nayibindən yeddi yüz manat alıb onu Ağdama və Qalaya nayib edələr ki, o da biçara fəhlələri dama doldurub hərəsindən iki manat, üç manat dinməver ala. Əgər bir də yazsan ki, tellan kisə taraci-cib, yəni təzkirə bazarı onda səni gedib Məhəmmədəli Sadıqzadəyə ki konsulun qoçusudur çuğul-layacağam, keyfinə bax.

*İmza: Əhməqüddövlə*

## POÇTA QUTUSU

Bakıda "İlan"a - Məktubun çox uzundu. İnşallah əhya gecələri oxuruq ki, bəlkə bir mətləb çıxardaq.

Vladiqafqazda "İtboğan Qasım"a: Sizin keçən nömrədə Saleh bəy Zöhrabbəyov barəsində yazdığınız xəbər bilmərrə səhvdir. Çünki bizə məlum oldu ki, müşarileyh "Terek" qəzetində müsəlman arvadlarının üzüaçıq gəzməsi barəsində heç bir şey yazmayıbdır. Xahiş edirik yazılarınıza diqqət edəsiniz.

*Müdir və baş mühərrir:*
*Cəlil Məmmədquluzadə, Əliqulu Nəcəfov*

*Электроп. Грузинск.*
*Изд.Товарищества Больш. Ванкская ул. №12*



*Orucluqda Kabla Namaz gündüz orucağız zəif halətində.*
*Həkim - Gərək hər necə olsa bir stəkan süd içəsən, yoxsa axşama kimi davam gətirə bilməzsən, həlak olarsan.*
*Mən necə ki, indiyə kimi oruc yeməmişəm, indi ölsəm də orucumu yemərəm...*




*Kəbla Namaz orucluqda gecə iftar açandan sonra.*
*- Kabla Səfdər! Deyirlər şahın cülusunda İranda çox yaxşı şadyanəlik ediblər, əsli varmı?*
*- Məşədi Hümmətəli! Maşallah iranlılar həmi cəşn eləməkdə qoçaqdırlar, həmi təziyə saxlamaqda.*



*Zalım oğlu Kəspərin çaxırı adamı lap dirildir.*